## Səbail rayonu

# Ahıllar günü qeyd olunmuşdur

Beynəlxalq Ahıllar günü ənənəvi olaraq Səbail rayonunda geniş şəkildə qeyd olunmuşdur. Rayon icra hakimiyyətinin təşkilatçılığı və rayondakı bir sıra ictimai birliklərin iştirakı ilə Ahıllar günü keçirilməsi üçün əvvəlcədən hazırlıq işləri görülmüşdür.

Əlamətdar günlə əlaqədar Bayıl yaşayış sahəsində rayonun ahıl, kimsəsiz, əlil və qayğıya ən çox ehtiyacı olan vətəndaşların bir qrupu – ümumilikdə 150 nəfər üçün rayon icra hakimiyyəti tərəfindən bayram süfrəsi açılmışdır. Tədbirdə həmçinin rayon rəhbərliyi, yerli bələdiyyələrin və ictimaiyyətin nümayəndələri iştirak etmişlər.

**Səbail Rayon İcra Hakimiyyətinin başçısının 1-ci müavini Xalidə Bayramova** qeyd etmişdir ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin apardığı uğurlu siyasət nəticəsində əldə olunmuş iqtisadi inkişaf ölkə rəhbərliyinə imkan vermişdir ki, son illər ərzində pensiya və minimum əmək haqlarının məbləği dəfələrlə artırılsın. Qarşıdakı illərdə də pensiya və müavinətlərin artırılması



nəzərdə tutulur.

Bildirilmişdir ki, bu gün Səbail rayonunda yaşayanların 6,5 faizini (6075 nəfər) yaşı 65-dən yuxarı olan ahıllar təşkil edir. Müxtəlif növ və kateqoriyalar üzrə 2978 nəfər sosial müavinət, 187 ailə (709 nəfər ailə üzvü) ünvanlı sosial yardım alır ki, hər bir ailə üzvünə 34,00 manat olmaqla, orta hesabla hər bir ailəyə 143,3 manat sosial yardım təyin olunmuşdur. Ümumilikdə isə rayonda 13165 nəfər təqaüdçü yaşayır.

Səbail rayon Əhalinin Sosial Müdafiə Mərkəzinin Sosial xidmət şöbəsində 372 nəfər tənha, əlil qeydiyyatdadır ki, onlara 31 nəfər sosial işçi xidmət göstərir. Təqaüdçülərə təqaüd və müavinətlərin ödənilməsində gecikmələrə yol verilmir, onların müraciətləri nəzərə alınaraq rayonun bir neçə yaşayış sahəsində, o cümlədən Bibiheybət qəsəbəsi, 20-ci yaşayış sahələrində yeni bankomatlar və ödəmə terminalları quraşdırılmışdır.

Çıxış edənlər rayonda ahıl və veteranlarla bağlı görülən işlərdən, onlara göstərilən diqqət və qayğıdan danışmış və ölkəmizin inkişafı və çiçəklənməsi istiqamətində gördüyü işlərdə uğurlar arzulamışlar.

Görüşdə iştirak edən ahıllara RİH tərəfindən hədiyyələr təqdim edilmiş, respublikamızın tanınmış incəsənət xadimlərinin iştirakı ilə böyük konsert proqramı təşkil olunmuşdur.

**Məhəmməd VƏLİYEV,**
**“Respublika”.**

